# FƏLSƏFƏ

**UOT 322**

## AZƏRBAYCANDA XX-XXI ƏSRLƏRDƏ MİLLİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA SİYASİ MÜNASİBƏTLƏRİN ROLU

**Günel MƏLİKLİ***

***Açar sözlər:*** *dövlət quruculuğu, milli mədəniyyət, ideologiya, siyasi mədəniyyət, kütləvi informasiya vasitələri, təhsil sistemi*

### Giriş

Siyasi sistem ümumi sosiomədəni sistemin tərkib hissəsi olaraq müəyyən dəyərlərə malikdir. Hər bir ölkədə öz siyasi dəyərlər sistemi formalaşır. Məlumdur ki, dəyərlər ictimai şüurun formalaşmasının qüdrətli aləti olaraq hər bir ictimai quruluşun təməli rolunu oynayır. Dəyərlər insanların sosial fəaliyyətində motivasiya və nümunə şəklində çıxış edir. Bəs müasir Azərbaycan cəmiyyətində siyasi dəyərlər digər dəyərlər sistemində necə yer tutur? Aydındır ki, bunlar insanların siyasi davranışına birbaşa təsir edir. Milli suverenlik illərində siyasi dəyərlər azərbacançılıq ideologiyası əsasında formalaşır. Bu sahədə dövlət səviyyəsində aparılan təbliğat işləri, yeni dövlət quruculuğunun inkişaf istiqamətləri əhəmiyyətli rol oynayır.

Cəmiyyətin siyasi həyatında həm də siyasi meyillər və stereotiplər əhəmiyyətli rol oynayır. Bir siyasi sistem və rejim şəraitindən digərinə keçid zamanı formalaşan yeni dəyərlər və meyillər sistemi siyasi davranışa əsaslı şəkildə təsir göstərir. Azərbaycan şəraitində formalaşan meyillər və istiqamətlənmələr ilk növbədə SSRİ-nin dağılması, Dağlıq Qarabağ münaqişəsinin başlanması, iqtisadi həyatın tənəzzülü, həyat səviyyəsinin aşağı düşməsi, sonradan ulu öndər H.Əliyevin hakimiyyətə gəlişilə başlanan dirçəliş və inkişaf prosesi ilə təyin olunurdu. Müxtəlif yaş, nəsil nümayəndələrində siyasi həyatda baş verən hadisələrin qavranılması, düşünülməsi və qiymətləndirilməsi fərqli olmuşdur. Sovet rejimi şəraitində böyüyüb formalaşan yaşlı nəslin siyasi proseslərlə bağlı gözlədiyi və təsəvvür etdiyi siyasi tələbatlar gənc nəsildən bir qədər fərqli idi. Müasir siyasi kommunikasiyalar sistemi elə qurulub ki, burada siyasi mövqelər, meyillər və qavramalar böyük sürətlə formalaşır və dəyişilir. Bu baxımdan dövlət tərifindən həyata keçirilən vahid ideologiya, yəni azərbaycançılıq ideologiyasının prinsipləri böyük əhəmiyyət kəsb edir. Bu istiqamətlərdə aparılan işlər sırasında siyasi meyil və tələbatların öyrənilməsi olduqca vacibdir.

### Siyasi mədəniyyətin formalaşması

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da siyasi həyatın vacib tərkib hissələrindən biri siyasi mədəniyyətin formalaşması və təzahür xüsusiyyətləridir. Siyasi fəaliyyət texnologiyaları ildən-ilə təkmilləşir, siyasi həyat daha mürəkkəb xarakter alır, bu da öz təsirini hər bir insanın, ya da siyasi elektoral qrupunun siyasi mədəniyyətin formalaşması xüsusiyyətlərinə öz təsirini göstərir. Siyasi mədəniyyət özündə insanın dünyagörüşünü, onun siyasi fəaliyyət platformasını və fəal həyat mövqeyini birləşdirir. Siyasi sosiallaşma birbaşa siyasi mədəniyyətin formalaşmasına və inkişafına təsir göstərir, cəmiyyətin keçid dövründə, onun inkişafının mühüm anlarında siyasi sosiallaşma prosesi daha böyük sürətlə gedir.

Vahid dövlət ideologiyasının uğurlu addımlarından biri siyasi identikliyə nail olaraq hər bir insanın siyasi iştirak dərəcəsini artırmaqdır. Azərbaycanda siyasi identikliyin formalaşması xüsusiyyətləri yaşadığımız tarixi mərhələ ilə təyin olunur. Müstəqil Azərbaycan cəmiyyətində formalaşan demokratik dövlət, günü-gündən genişlənən siyasi əlaqələr və daxili sabitliyin bərqərar olunması

* *AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, siyasi elmlər üzrə fəlsəfə doktoru*

Dağlıq Qarabağ münaqişəsinə baxmayaraq, dövlətin qüdrəti və iqtisadi əsaslarının möhkəmləndirilməsi siyasi identikliyin əsas cizgilərini təyin etmişdir. Burada siyasi identikliyin formalaşması mexanizminin vacib ünsürləri siyasi addımlar, prioritetlər, dövlətin siyasi platforması, onu təmsil edən siyasi elitanın nüfuzu, həyat səviyyəsi, sosial kapitaldır. Hər bir adı çəkilən amilin inkişaf xüsusiyyətləri siyasi identikliyin göstəricilərinə təsir edir.

Siyasi mədəniyyətin formalaşması prosesi mürəkkəb və ziddiyyətlidir. Bu sahədə hələ kifayət qədər araşdırmalar aparılmamışdır. İstər yerli, istərsə də xarici təcrübə göstərir ki, milli və regional siyasi mədəniyyətlərdə həm oxşar, həm də fərqli cəhətlər var. Cənubi Qafqazla bağlı demək olar ki, postsovet məkanın tərkib hissələri olmuş bu ölkələr (Gürcüstan, Ermənistan, Azərbaycan) oxşar siyasi halları yaşadılar, lakin onların siyasi inkişafı siyasi hakimiyyət tərəfindən irəli sürülən prinsip və müddəalarla bağlı olmuşdur. Bildiyimiz kimi, Gürcüstan, ABŞ və NATO şüarı altında siyasi arenaya çıxış etməyə, Ermənistan isə Rusiya və onun tərəfdaşlarının irəli sürdüyü siyasətə meyillidirlər. Azərbaycan isə (Türkmənistan və Tacikistinda olduğu kimi) daha çox regional əməkdaşlıq əsasında öz siyasətini qurmağa çalışır. Birinci növbədə Rusiya kimi qonşu ilə qarşılıqlı əlaqələrin yaradılması nəzərdə tutulur. Əsas göstəricilərdən biri siyasi iştirak modelidir.

Siyasi iştirakının formaları, amilləri və tipləri müxtəlif ola bilər. Müxtəlif ölkələrdə siyasi iştirakın vəziyyəti və inkişaf meyilləri müxtəlifdir. Əhalinin siyasi iştirak fəallığı cəmiyyətin inkişafının əhəmiyyətli rol oynayan anlarda, məsələn, keçid dövrlərində artır, bu da siyasi mədəniyyətin təşəkkülünə öz təsirini göstərir.

**Azərbaycanda formalaşan siyasi mədəniyyət**

Azərbaycanda formalaşan siyasi mədəniyyət və siyasi iştirak formaları bir sıra özünəməxsusluqlara malikdir. Siyasi iştirak problemi Azərbaycan politoloqları tərəfindən fəal şəkildə öyrənilir, bu da siyasi praktikada öz əksini tapır.

Tədqiqatçıların hesab etdiyi kimi, "modernləşmənin Qərb modelinin cəmiyyətin xilasını təmin edə biləcək yeganə çıxış yolu olması haqqında düşüncələr dağıldıqdan sonra məlum oldu ki, yalnız milli mədəniyyətlərin zəminində həyata keçirilən inkişaf modeli cəmiyyət üçün münasib üsuldur. Yəni nə dünyadan təcridlə, nə də Qərbə qarışma ilə deyil, modernləşmənin endogen (daxili) şərtlərlə reallaşdırılması, hər bir xalqın öz qüvvəsinə istinad etməsi cəhdləri müvafiq nəticələr verə bilər. Bütövlükdə, modernləşmə nəzəriyyəsində və empirik təhlillərdə müşahidə olunan ziddiyyət inkişafda olan ölkələrdə bu gün özünü göstərir (13, s.30)

Bu ziddiyyətlər həm də mədəni həyatın vacib hissəsi olan kütləvi informasiya vasitələrində özünü göstərir. Akad. R.Mehdiyevin qeyd etdiyi kimi, "kütləvi informasiya vasitələri "dördüncü hakimiyyət" sayılır. Bu zaman informasiya azadlığı, fikir və siyasi seçim azadlığı təmin olunur. Ən yeni kommunikasiya texnologiyaları hakimiyyət və informasiya vasitələrinin əməkdaşlıq imkanlarını və formalarını xeyli genişləndirir. Kütləvi informasiya vasitələrinin çeşidi genişləndirilmişdir. Azərbaycanda KİV öz fəaliyyətini beynəlxalq hüquqi qaydalar əsasında qurur ki, insan hüquqlarının vacib tərkib hissəsi olan düzgün məlumatların alınması prosesi fasiləsiz və itkisiz təmin olunsun.

Bütövlükdə milli dövlət, milli mədəniyyət və mədəni suverenlik müasir dövrün aparıcı siyasi anlayışlardır. Milli mədəniyyət sahəsində dövlətlərin suverenliyi getdikcə daha qabarıq şəkildə özünü bildirir. Məlum olduğu kimi, milli mədəniyyət fenomeni Qərbi Avropanın modern adlanan inkişaf mərhələsində daxil olmağı ilə təşəkkül tapmağa başladı (16, s.88). Müasir dövrdə mədəni inkişaf hər bir bölgədə və etnik qrupda sürətlə inkişaf edir, təsadüfi deyil ki, tolerantlıq və multikultural inkişaf bir çox dövlətlər tərəfindən sosial siyasətdə əsas kimi götürülmüşdür.

**Milli dövlətçiliyin qurulması**

Məlum olduğu kimi, ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Azərbaycanda müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi və milli iqtisadiyyatın durğunluq prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı. Milli tariximizin bu dövrü milli dövlətçilik qurulma-

sı üçün o vaxt zəruri olan qətiyyətli etatist yanaşmanın əsası, başlıca mənbəyi olmuş, bu yanaşmanın bazis konsepti isə Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi və sosiomədəni modernləşməsinin prioritet komponenti kimi Realpolitik çıxış etmişdir (15, s.7-8).

Müasir dövrün inkişaf xüsusiyyətləri sırasında həm də miqrasiyanın günü-gündən genişlənməsini, demoqrafik dəyişikliklərə gətirən sosial prosesləri göstərmək olar. Kütləvi şəkildə inkişaf etmiş ölkələrə köçən afrikalılar, asiyalılar və s. həmin dövlətlərin mədəni mənzərəsini xeyli dəyişdirmiş və zənginləşdirmişdir. Yəni başa düşmək olur ki, mədəni inkişaf yalnız milli mədəniyyətin formalaşması istiqamətində getmir.

Akad. R.Mehdiyevin göstərdiyi kimi, XX əsrin son 30 ilində Azərbaycanda ənənəvi cəmiyyətdə gedən modernləşdirməni səciyyələndirərkən dörd cəhəti fərqləndirmək olar. Birincisi, ənənəvi cəmiyyətin əsas ideologemləri və ənənəvi normalarının tənqidi təhlilinin baş verməsi və mərhələ-mərhələ latent (gizli) surətdə dağılması; ikincisi, ənənəvi kommunist ideologiyası dayaqlarının dağılması və prinsipcə başqa ictimai normalara uyğun gələn davranış modelinin formalaşması; üçüncüsü, əvvəlki fəaliyyət modellərinin böhranı; və nəhayət, dördüncüsü, yeni ictimai fəaliyyət modellərinin təşəkkülü prosesi, əhalinin getdikcə daha geniş təbəqələrinin bu prosesə tədricən cəlb edilməsi və cəmiyyətin yeni sosial strukturunun formalaşması idi. Həm də 1970-ci illər – 1980-ci illərin əvvəllərini əhatə edən birinci mərhələ milli dəyərlərin dirçəlişi, əhalinin rifahının yüksəlişi və təhsil səviyyəsinin artması ilə bağlı idi. Bütövlükdə götürdükdə, bütün bunlar insanların davranış modellərindəki dəyişikliklərə təsir göstərirdi. Lakin dəyişiklər bərabər yayılmırdı, modernləşdirmə "təbəqə-təbəqə" gedirdi: ənənəvi cəmiyyətin latent surətdə dağılması ilk növbədə ölkənin sənaye mərkəzlərinin sakinlərini əhatə edir, sonra isə formasını dəyişərək, mərkəzdən əyalətlərə yayılırdı (6, s.9).

Bundan başqa, transformasiyanın ikinci mərhələsi 1980-ci illərin ikinci yarısına, sovet cəmiyyətinin ideoloji dayaqlarının pozulduğu və kəskin tənqid edildiyi, "qadağan olunmayan nə varsa, hamısının" tədricən dağılmağa başladığı "yenidənqurma və aşkarlıq dövrünə" aiddir. Kooperasiya və kiçik sahibkarlıq haqqında qanunların qəbul edilməsi iqtisadi fəaliyyətin yeni modellərinin formalaşmasının bünövrəsini qoydu. Transformasiyanın üçüncü mərhələsi 1991-ci ildə müstəqilliyin əldə edilməsi, Azərbaycan cəmiyyətinin həyata keçirilməsi baş tutmayan inkişaf "layihəsi" ilə bağlı idi. Dəyişikliklərin başlanmasına belə bir inam təkan verirdi ki, bazar iqtisadiyyatı səmərəliliyin və bunun nəticəsi kimi, əhalinin rifahının yüksəlməsini təmin edən universal mexanizm olacaqdır (6, s.10).

1993-cü ilin ortalarından Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra transformasiyanın dördüncü mərhələsi - Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsi və ölkənin dünya siyasətinin subyekti kimi beynəlxalq aləmdə tanınmasına gətirib çıxaran əsl demokratik dəyişikliklər mərhələsi başlandı. Yeni demokratik dövlətin əsas prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, tarazlı xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təsisatların qurulması, yeni siyasi birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin tədricən formalaşması prosesinin ağlasığmaz dərəcədə mürəkkəb şəraitdə getməsinə baxmayaraq, Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır (6, s.10,11)

Azərbaycanda dövlətçiliyin inkişafının yeni mərhələsini sabitlikdən modernləşməyə keçid kimi qiymətləndirən Prezident İlham Əliyev iqtisadi yüksəlişin intensivləşdirilməsini postmodern cəmiyyətə aparan əsas amil hesab edir (15, s.177). Burada həm də mədəni dirçəlişdən danışmaq olar. Buna görə hesab olunur ki, çox qısa zamanda möhtəşəm nailiyyətlər əldə etməyin simvolu olan sürətli inkişaf modellərini – XX əsrin "Cənub Asiya", "Yaponiya" möcüzələrini tanıyan dünya bu gün, XXI yüzilliyin "Azərbaycan möcüzəsinin", "keyfiyyət inqilabının" yaranması ərəfəsindədir. Azərbaycan xalqı qarşıdakı mərhələdə bunun qlobal miqyasda etirafının şahidi olacaqdır. Bu baxımından "Azərbaycanın müasir inkişafı simmetrik islahatların dinamikasını müəyyənləşdirməyi tələb edir, başqa sözlə, bu, elə Prezident İlham Əliyevin siyasi və iqtisadi dəyişikliklərin paralel surətdə həyata keçirilməsinin vacibliyi barədə dəfələrlə vurğuladığı fikirdir. Deməli, hər bir sahədə islahatlar bir-birini tamamlamalı, dövlətin və cəmiyyətin gələcək inkişafına şərait yaratmalı, bu prosesə

yeni təkan verməlidir. İslahatlar Azərbaycan sosiumunun ümumi tranformasiyası üçün stimul olmalıdır (4, s.47,48).

Milli mədəniyyətə və ideologiyaya qapanmaq müasir dünyanın ümumi inkişaf xəttinə ziddir. Bununla belə milli identiklik problemi öz düzgün həllini tapmalıdır. Bildiyimiz kimi, Respublika Prezidentinin ölkənin sosiomədəni modernləşmə və əsaslı transformasiyası xətti milli ideologiyaya tələbat doğurur. Bu ideologiyanın əsas istiqamətlərinin, strategiyasının təməlini Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Prezident İlham Əliyev qoymuşlar (8, s.7).

2011-ci il 10 oktyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Humanitar Forumun açılışındakı nitqində demişdir ki, "Humanitar sahə hər bir ölkə üçün çox vacibdir. Əlbəttə, humanitar sahəyə daha da böyük diqqət göstərmək üçün ölkənin maliyyə imkanları da olmalıdır. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklər içərisində yaşamışıq. Azərbaycanda həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Ola bilər ki, 90-cı illərin əvvəllərində bu sahəyə lazımi dərəcədə diqqət göstərilmirdi. Ona görə yox ki, bu diqqətdən kənarda qalmışdır. Ona görə ki, maliyyə imkanlarımız yox idi. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Humanitar sahənin inkişafı əlbəttə ki, bizim üçün prioritetdir. Bu sahəni inkişaf etdirmək üçün bizdə imkanlar vardır. Sirr deyil və hamımız yaxşı bilirik ki, ölkənin gələcəyini və uğurlu inkişafını təmin edən təbii resurslar deyil, humanitar amildir. Ona görə Azərbaycanda təhsilə, elmə qoyulan sərmayə öz nəticəsini verir və verəcəkdir. Bir neçə il bundan əvvəl irəli sürülən, "qara qızıl"ı insan kapitalına çevirək tezisi artıq bu gün reallıqdır" (1, s.168).

**Mədəni dəyərlərin qorunub saxlanılması**

Mədəni dəyərlərin qorunub saxlanılması işində dövlət səviyyəsində keçirilən bir sıra tədbirlər mühüm əhəmiyyət kəsb edir. Məsələn, "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ili çərçivəsində ötən 11 ay ərzində ölkəmizdə bir sıra əlamətdar tədbirlər keçirilib. Daha doğrusu, "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ilinin proqramına 100-dən artıq milli və beynəlxalq miqyaslı tədbir daxil edilib. Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı seçilməsinin ölkəmiz üçün qürurverici olduğunu deyən dövlət başçısı onu da bildirib ki, Azərbaycan sivilizasiyalararası dialoqun gücləndirilməsinə öz töhfəsini verir: "Çünki bizim coğrafi vəziyyətimiz və eyni zamanda, Avropa təşkilatlarına üzv olmağımız bu unikal imkanları yaradır. Biz çalışacağıq öz səylərimizi bundan sonra da qoyaq ki, mədəniyyətlərarası dialoqun gücləndirilməsinə daha da böyük töhfə verək" (7).

**Multikultural dəyərlər**

Ümumiyyətlə, "mədəniyyətlərə, sivilizasiyalara hörmətdə Heydər Əliyev üçün Qərb, Şərq bölgüsü simvolik idi. Yəni o, həm Qərb, həm Şərq mədəniyyətini, bir ziyalı kimi, eyni ölçülərlə qiymətləndirirdi. Bütün mənəvi nemətləri insanlığın, bəşəriyyətin tarixi neməti hesab edirdi. Aydın məsələdir ki, Şərqə məxsus ən böyük və qədim hikmətlərə dərin rəğbətini gizlətmirdi. Çünki Şərqdə sivilizasiyaların tarixi daha qədim və dərin olduğundan onun zənginliyi də hamıya bəllidir. Amma Qərbin elmi-texniki və texnoloji tərəqqisini də yüksək qiymətləndirməklə bərabər, onların dərindən öyrənilməsi, Azərbaycanda tətbiqi məsələlərinə də xüsusi qayğı göstərirdi. Bununla yanaşı 2011-ci il oktyabr ayının 10-da Bakı şəhərində "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə Beynəlxalq Humanitar Forum başladı. 20-dən çox ölkənin iştirak etdiyi bu forumda Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söylədi. İki gün davam edən Forumda çıxış edən nümayəndələrin hər biri İ.Əliyevin nitqində ifadə olunmuş əsas məsələlər barədə fikir söylədilər, səmərəli təkliflər verdilər (3 s.282). Nitqdə əhatə edilmiş fikirlər sırasında həm də humanitar sahədə əməkdaşlığın daha da dərinləşdirilməsi zərurəti vurğulanmışdır. Buna görə də Avropa Şurasına, İslam Əməkdaşlığı Təşkilatına üzv olan ölkələr arasında humanitar əməkdaşlıq təcrübəsinin təkmilləşdirilməsi, birgə müzakirələrin intensivləşdirilməsi vacib tələbə çevrilib... (3, s.291).

Tədqiqatçıların düzgün vurğuladığı kimi, “tarix sübut edib ki, multikultural dəyərlər olmasaydı heç böyük bəşər mədəniyyəti də ola bilməzdi. Çünki müəyyən sərhədlər daxilində təcrid olunmuş və özünə qapanmış hər hansı bir mədəniyyət tənəzzülə məhkumdur. Qloballaşma dövründə isə heç bir ölkə multikulturalizmin təsirindən kənarda qala bilməz. Günümüzdə multikulturalizmin böhranı və ya süqutu ilə bağlı Qərbdə səslənən fikirlər heç də birmənalı qəbul edilmir. Qərbin bir ideologiya olaraq baxdığı multikulturalizm bir çox yerlərdə, o cümlədən Azərbaycanda həyat tərzi olaraq qəbul olunur. İnsanlar minillər boyu yaşadıqları çoxmədəniyyətli həyatı bir zənginlik kimi qəbul edirlər.

Yenə də mədəniyyətin milli və ümumbəşəri mənalarını nəzərə alaraq xatırlamalıyıq ki, “Azərbaycan multimədəni dünyada” məfhumunu ehtiva edən milli inkişaf ideologeminə münasibətin dəyişməsini nəzərdə tutur. Onun tarixi, iqtisadi, siyasi, mədəni-sosioloji, sivilizasion-beynəlxalq və başqa kontekstləri vardır. Lakin onu da nəzərə almaq lazımdır ki, bu həm birləşdirə, həm də ayıra, cəmiyyət və dövlətin tərəqqisinə həm kömək edə, həm də onları zəiflədə bilər. Yəni özünün və “başqalarının” köklərinə, mənşəyinə, mənafeyinə münasibətdə ölçü məsələsi milli inkişaf ideologiyasında onun uğurlu olması üçün həlledici əhəmiyyət kəsb edir (9, s.15).

Buna görə də 22 dekabr 2011-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin Əjdərbəy məscidinin əsaslı təmir və yenidənqurmadan sonra açılışındakı nitqində demişdir ki, “dünyada multikultarlizmə müxtəlif yanaşmalar mövcuddur, fikirlər səslənir, bəziləri deyir ki, multikultaralizm artıq ölüb, multikulturalizmin gələcəyi yoxdur. Azərbaycanın fəaliyyəti və Azərbaycanın timsalında görülən işlər göstərir ki, multikulturalizm yaşayır. Onun ünvanlarının biri məhz Azərbaycandır. Multikulturalizmə alternativ yoxdur. Multikulturalizmə alternativ özünütəcriddir”. Bu fikrin davamı olaraq 2011-ci il 10 oktyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq Humanitar Forumun açılışındakı nitqində dediyini göstərmək olar: “Multikulturalizmin alternativi özünütəcriddir. Mən inanıram ki, iyirmi birinci əsrdə, qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Multikulturalizmin dəyərləri, əsasları möhkəmləndirilməlidir. Multikulturalizm - başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir”. (11, s.170)

Azərbaycan mədəniyyətinin vacib xüsusiyyətlərindən biri məhz multikulturalizmdir. Buna görə də 04 oktyabr 2012-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin II Bakı Beynəlxalq Humanitar Forumundakı nitqində demişdir ki, “multikulturalizmin müsbət gələcəyi haqqında fikirlər çox vacibdir və lazımdır. Azərbaycanın təcrübəsi hesab edirəm ki, əslində, multikulturalizmin ideyalarının təbliği üçün çox dəyərli və qiymətlidir. Çünki bir daha demək istəyirəm ki, multikulturalizm bizim həyat tərzimizdir... Həm siyasətçilərin, həm ictimai xadimlərin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin məsuliyyəti ondan ibarətdir ki, müsbət meyilləri, müsbət təcrübəni işıqlandırmaq lazımdır” (11, s.19).

Həm də “Azərbaycan sivilzasiyalararası dialoqun gücləndirilməsində öz rolunu oynayır. Bunun təbii səbəbləri vardır, çünki biz qitələrin arasında yerləşirik. Siyasi səbəbləri vardır, çünki bu, bizim siyasi əqidəmizdir və tarixi əsasları vardır. Azərbaycan həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Dünyada bir neçə ölkə vardır ki, hər iki təşkilatın üzvüdür. Avropadan Azərbaycana baxdıqda bəzi hallarda avropalılara Azərbaycan Asiya ölkəsi kimi təqdim olunur. Asiya tərəfindən Azərbaycana baxanda Avropa ölkəsi kimi təqdim edilir. Yəni, deyə bilərəm ki, Azərbaycanda bu sintez-mədəniyyətlərin sintezi mövcuddur. Bu, bizim milli mənliyimizi şərtləndirən amillərdən biridir”. (11, s.20)

Beləliklə, multikulturalizm siyasəti irqi və dini mənsubiyyətindən asılı olmayaraq, insanların bərabərhüquqlu olması ideyasını irəli sürür və bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşmağı tövsiyə edir. Azərbaycan dövləti də tolerant bir dövlət olduğu üçün burada multikulturalizm siyasəti uğurla həyata keçirilir ki, məhz bu səbəbdən də Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. Bu da onun göstəricisidir ki, Azərbaycan xalqı hər zaman tolerant bir xalq olmuşdur və bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşmağı bacarır. Ölkədə apa-

rılan multikulturalizm siyasəti ilk növbədə sosial ədalətsizliyin aradan qaldırılması istiqamətində atılmış ən mühüm addımlardan sayıla bilər.

Məlumdur ki, təhsil cəmiyyətin sosial strukturunun yaradılmasında mühüm bir alətdir; təhsil vasitəsilə insanlar bir sosial qrupdan digərinə keçir, bu yolla üfüqi və şaquli şəkildə sosial mobillik təmin olunur, sosial seçim imkanı reallaşır. Təhsil sahəsində islahatların düzgün keçirilməsi ən geniş ümumi təhsilin reallaşmasına bir addım olacaqdır, nəticədə bütün sosial qrupların nümayəndələri öz təhsilini davam etməklə, yeni iş tapmaqla, ixtisasartırma imkanlarından istifadə etməklə fasiləsiz təhsili həyata keçirə bilərlər.

Təhsil sistemin islahatının əsasında təhsil sahəsində dövlət siyasətinin müxtəlif istiqamətləri durur. İslahatın əsasını cəmiyyətin sosial sifarişi təşkil edir. Deməli, islahatı həyata keçirmək üçün dövlətin, ali məktəblərin, bir də fərdlərin bu sahədə tələbatlarını müəyyən etmək lazımdır. Belə bir fikirlə razılaşmaq olar ki, müasir dövr üçün texnokratik təfəkkürün formalaşması səciyyəvidir.

Bildiyimiz kimi, Heydər Əliyevin milli siyasət konsepsiyasında elmə iki aspektdən xüsusi diqqət yetirilmişdir:

1. fundamental elmlərə;
2. humanitar elmlərə.

Fundamental elmlərin inkişafı ölkənin sənaye-iqtisadi potensialını gücləndirmək məramından irəli gəlirdi. Humanitar sahə bir qayda olaraq ideoloji xarakter daşıyır. Bu sahə yalnız ulu keçmişin, xalqın yaratdığı maddi-mənəvi sərvətlərin öyrənilməsi ilə məhdudlaşmır, həm də hər bir azərbaycanlıda milli ruh tərbiyə edir.

Təsadüfü deyil ki, Heydər Əliyev çıxışlarının birində demişdir: "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın". Təbii ki, buna nail olmaq üçün humanitar elmlərin inkişafına xüsusi qayğı göstərilməlidir. Belə qayğı isə 60-80-ci illərdə xalqımızın etnogenezisi, ən qədim tarixi, mifologiyası, folkloru, ədəbiyyatı, mədəniyyəti və incəsənəti ilə bağlı fundamental əsərlərin yaranmasında əhəmiyyətli rol oynamışdı. Moskvanın xüsusi nəzarətində olan humanitar elmlər sahəsində dəfələrlə "pantürkist", "panislamist" damğası vurulan heç bir azərbaycanlı alimin və əsərin repressiyaya məruz qalmaması Heydər Əlirza oğlunun tarixi xidmətlərindəndir (10, s.36).

Məlumdur ki, prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu, 4 yanvar 2003-cü il tarixli fərmanları ilə müstəqil dövlətimizin elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verildi, onun yeni nizamnaməsi təsdiq edildi. Bu fərmanlar Akademiyanın yeni tərkibdə, yeni strukturda və yeni məzmunda işləməsinə hüquqi, maddi-mənəvi özül oldu, onun qarşısında məsul dövlət vəzifələri qoydu, xalqımızın intellektual potensialını inkişaf etdirmək, onun dünya elmi ilə inteqrasiyasına nail olmaq baxımından mühüm tarixi sənəd rolunu oynadı. Akademiyaya, ümumilikdə elmimizə qayğı bu gün də dövlətin əsas prioritet siyasəti səviyyəsində həyata keçirilir. Ümummilli liderimizin siyasi xəttinə sadiq olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elm, təhsil və mədəniyyət sahəsində Heydər Əliyev strategiyasını ardıcıl davam etdirir (14, s.240).

Bu baxımından Prezidentin xalqımızın milli-mədəni və ictimai-siyasi tərəqqisi üçün xüsusi əhəmiyyət kəsb edən "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları böyük bir ictimai-mədəni hadisəyə çevrilmişdir. Belə bir mühüm və şərəfli vəzifənin 25 cildlik Milli Azərbaycan Ensiklopediyasının hazırlanması və nəşrinin Milli Elmlər Akademiyasına həvalə olunması bu ali elmi mərkəzə göstərilən etimadın bariz nümunəsidir (14, s.240).

**Nəticə**

Dəyərlər insanların sosial fəaliyyətində motivasiya və nümunə şəklində çıxış edir. Azərbaycan xalqı hər zaman tolerant bir xalq olmuşdur və bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşmağı bacarır. Ölkədə aparılan multikulturalizm siyasəti ilk növbədə sosial ədalətsizliyin aradan qaldırılması istiqamətində atılmış ən mühüm addımlardan sayıla bilər. Müasir dövrdə mədəni inkişaf hər

bir bölgədə və etnik qrupda sürətlə inkişaf edir, təsadüfi deyil ki, tolerantlıq və multikultural inkişaf bir çox dövlətlər tərəfindən sosial siyasətdə əsas kimi götürülmüşdür. Tədqiqatçıların düzgün vurğuladığı kimi, "tarix sübut edib ki, multikultural dəyərlər olmasaydı heç böyük bəşər mədəniyyəti də ola bilməzdi. Çünki müəyyən sərhədlər daxilində təcrid olunmuş və özünə qapanmış hər hansı bir mədəniyyət tənəzzülə məhkumdur.

## ƏDƏBİYYAT


1. 2003-2013 Prezident İlham Əliyevin seçilmiş nitqləri. Bakı: SAM center for strategic studies, 2013, s.168.
2. Həbibbəyli Ə. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri? // "İki sahil" qəzeti, 4 dekabr 2012-ci il.
3. Qaralov Z. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə) II cild. "Şərq-Qərb" Bakı: 2013, s.282-291.
4. Mehdiyev R. Azərbaycan -2003-2008: Zaman haqqında düşünərkən. Bakı: "Şərq-Qərb", 2009, s.47-48.
5. Mehdiyev R. Demokratiya yolunda: irs haqqında danışarkən. Bakı: "Şərq-Qərb", 2008.
6. Mehdiyev R. Yeni dünya nizamı və milli ideya. Bakı: "Şərq-Qərb", 2016, s.9.
7. Məlikli G. Şərqlə Qərbi özündə birləşdirən şəhər. // Yeni Azərbaycan qəzeti, 27 noyabr 2009-cu il.
8. Məmmədzadə İ. Elitaların təşəkkülü məsələsinə dair. // AMEA, Fəlsəfə institutu. Elmi Əsərlər, №1-2(13) Bakı: 2009, s.7.
9. Məmmədzadə İ. Multikulturalizm fəlsəfi problem və ideologem kimi // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Elmi əsərlər, №1(18), Bakı: 2012, s.15.
10. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. B.: Şərq-Qərb: 2002, s.35.
11. Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri. Bakı: "Nəşriyyat XXI" MMC-nin mətbəəsi, 2016.
12. Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri. Bakı: "Nəşriyyat XXI" MMC-nin mətbəəsi, 2016, s.19.
13. Rüstəmova A. B. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil. Bakı: 2017, s.30.
14. Sadıqov Ə. Azərbaycanın intellektual potensialı Heydər Əliyev irsinin ayrılmaz hissəsidir. "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" Beynəlxalq elmi-praktik konfrans. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s.240.
15. Yeni Siyasət: inkişafa doğru. I cild Mehdiyev R. "Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən IV kitabı, "Oskar" NPM mətbəəsi, 2008, s.7-8.
16. Малахов В.С. Национальное государство, национальная культура и культурный суверенитет. // Вопросы философии, 2011, №9, с. 88.

## *РЕЗЮМЕ*

***Гюнель Меликли***

### *Роль политических отношений в формировании национальной культуры в Азербайджане в XX-XXI веках*

***Ключевые слова:*** *государственное строительство, национальная культура, идеология, политическая культура, СМИ, система образования и др.*

Как в любой стране, так и в Азербайджане одной из важных составляющих политической жизни является формирование и проявление политической культуры. Процесс формирования политической культуры сложен и противоречив. В этой области еще недостаточно исследований. Как местный, так и зарубежный опыт показывает, что национальные и региональные политические культуры имеют как сходства, так и различия. В целом национальное государство, национальная культура и культурный суверенитет - ведущие политические концепции современности. В области национальной культуры суверенитет государств становится все более явным. Одна из важных особенностей азербайджанской культуры - мультикультурализм.



## *SUMMARY*

***Gunel Melikli***

### *The role of political relations in the formation of national culture in Azerbaijan in the 20th-21st centuries*

***Keywords:*** *state building, national culture, ideology, political culture, mass media, education system*

As in any country, so in Azerbaijan, one of the important components of political life is the formation and manifestation of political culture. The process of forming a political culture is complex and contradictory. There is not enough research in this area yet. Both local and foreign experience shows that national and regional political cultures have both similarities and differences. In general, the nation state, national culture and cultural sovereignty are the leading political concepts of our time. In the field of national culture, the sovereignty of states is becoming more and more obvious. One of the important features of Azerbaijani culture is multiculturalism.